Ana dili varlığımızdır

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ana dilimizə diqqət və qayğı xeyli artmışdır. Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət dili haqqında" məşhur sərəncamından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 may 2012-ci il tarixdə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında" yeni sərəncamından irəli gələn tələblərin həlli bugünümüzün aktual, prioritet məsələlərindən biridir. Elə ana dilimizə diqqət və qayğının təzahürü kimi oxucularımıza təqdim etdiyimiz bu polemik söhbətlərin ruhunda da doğma Azərbaycan dilinə diqqət, sevgi, sayğı, məhəbbət var.

Zaman öz axarı ilə getdikcə dilimiz də inkişaf edir. Tarix boyu həmişə ziyalılarımız, ictimai-siyasi xadimlərimiz dilimizin saflığı, təmizliyi uğrunda mübarizə aparmış, onu hər cür mənfiliklərdən qorumağa çalışmışlar.

Çağdaş günlərimizdə də ana dili mövzusu aktualdır, hər bir soydaşımızdan diqqət və qayğı tələb edir. Həm də ana dilimizə yanaşmamız elmi əsaslara söykənməlidir. Təəssüflər olsun ki, bu sahədə hələ də biganəliyə təsadüf olunur. Belə şəraitin yaranmasında radio və televizayalarımız, bəzi mətbuat orqanlarımız günahkarlır. Bu və digər məsələlər, problemlərdən çıxış yolları haqqında fikir mübadiləsi aparmaq üçün bir neçə ziyalıya müraciət etdik.

–Kütləvi informasiya vasitələrində doğma dilimizə münasibət barədə fikrinizi bilmək istərdik. Mümkünsə, deyin son illər mətbuatda, eləcə də televiziya ekranlarında aparıcıların, çıxış edənlərin nitqi, danışığı, dil mədəniyyətinin səviyyəsi necədir?

–Xarici filmlərin dublyajı, səsləndirilməsi bir tamaşaçı kimi sizi qane edirmi? Dil mədəniyyəti, təmizliyi dublyaj filmlərində gözlənilirmi?

–Müharibə vəziyyətində olan ölkəmizin efirində vətənpərvərlik mövzusunda gedən verilişlər sizi qane edirmi?

Buludxan XƏLİLOV,
filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin dekanı

—Ümumiyyətlə, dil Azərbaycan xalqının həm mənəviyyat, həm mədəniyyət atributu, həm də dövlətimizin ən müqəddəs rəmzlərindən biridir. Onu da qeyd etmək lazımdır ki, dili ən çox qoruyub saxlayan xalqımız olmuşdur, xalqımızın ziyalıları, şeir və nəsr əsərləri yaradan yazıçılarımız və şairlərimiz olmuşdur. Amma bunu da nəzərə almalıyıq ki, dilin qorunmasında, yaşamasında kütləvi informasiya vasitələrinin də rolu böyükdür. Və biz informasiya əsrində yaşayırıq. İnformasiya əsrində də belədir ki, dünya qloballaşır, bu qloballaşan dünyada hər hansı bir informasiya ani bir müddətdə az qala dünyanı "fəth edir". Və belə olduqda kütləvi informasiya vasitələrinin özünün rolu olduqca aktuallaşır və kütləvi informasiya vasitələrində çalışan insanların məsuliyyətini artırır. Bu mənada kütləvi informasiya vasitələrində çalışanların rolu, funksiyası məsuliyyəti də artır. Bu mənada açıq deyək ki, istər televiziya kanallarında, istərsə də mətbuat orqanlarında nitq mədəniyyəti arzuolunan səviyyədə deyil. Mən istəyərdim ki, kütləvi informasiya vasitələrində, radio-televiziyadakı nitq mədəniyyəti ilə bağlı qüsurların bəzi məqamlarını nəzərə çatdırım. Bu məqamlardan birincisi ondan ibarətdir ki, əksər aparıcıların nitqi olduqca iti sürətlidir. Hər hansı bir informasiyanı, məlumatı qəbul etmək üçün dinləyici əgər qulağını, beynini, təfəkkürünü ora yönəltsə də, o informasiyanı qavramağa, özününkü etməyə vaxt tapa bilmir. Çünki az qala sözlər arasında intonasiya, fasilə, pauza itir. Bu ondan irəli gəlir ki, bəzi qeyri-peşəkar radio və televiziya aparıcıları elə başa düşürlər ki, sürətlə danışmaqla özlərinə auditoriya qazanırlar. Halbuki əksinə, nəzərə almaq lazımdır ki, auditoriya ağı qaradan seçə bilir və bu auditoriyada insanlar istənilən bir verilişə, informasiyaya ona görə qulaq asır, dinləyirlər ki, oradan nəyi isə öyrənsinlər. Bizim sürətlə danışan aparıcılarımız, jurnalistlərimiz özləri də bilmədən dilin morfoloji strukturunu pozurlar. Azərbaycan dili morfoloji quruluşuna görə iltisadi dildir, yəni sözün kökü var, ona şəkilçi qoşulur, bu bir sistemdir. O iti sürətlə danışmaq Azərbaycan dili haqqında belə təsəvvür yaradır ki, Azərbaycan dili iltisadi yox, inkorporlaşan dildir. İnkorporlaşan dil o dildir ki, orda sözlə cümlənin sərhədi itir, orda sözlər, demək olar ki, bir-birinə qovuşur, qaynayır-qarışır. Beləliklə, radio və televiziyalardakı qeyri-peşəkar aparıcılar dilimizi iltisadilikdən inkorporlaşan dillər səviyyəsinə salırlar. Az qala dilimizin morfoloji strukturunu dəyişirlər.

İkinci ciddi məqam. Biz baxsaq, radio və televiziya aparıcılarının nitqi çox bəsitdir, çox kasaddır, çox primitivdir. Bunun səbəbi nə ilə bağlıdır? İnanın ki, həmin aparıcıların bir qisminin lüğət tərkibini araşdırsaq, hesablasaq, 250 - 300 sözdən artıq olmayacaq. Ona görə də eyni sözləri onlar ya təkrarlayırlar, ya da ki özlərindən söz icad edirlər, halbuki o sözün Azərbaycan dilinə heç bir aidiyyəti yoxdur. Yaxud da əcnəbi dillərdən sözlər götürüb istifadə edirlər. Dilin başına oyun açırlar, əllaməlik edirlər və bütövlükdə dilin lüğət tərkibini kökündən zədələyirlər. İkinci qüsur onların lüğət tərkibini bilməməyindən irəli gəlir. Bunun səbəbi nədir? Çünki bir sıra radio və televiziya aparıcıları bədii əsərləri oxumurlar, yaxud da ki, az oxuyurlar. Ümumiyyətlə, bədii əsərlər hər bir oxucunun lüğət tərkibini formalaşdırır. Aparıcılar bədii əsər oxumadıqları üçün onların lüğət tərkibi çox qurudur, solğundur, dilçilik termini ilə desək, donuqdur. Dinamik deyil, canlı deyil, ətrafdakıları özünə cəlb edən deyil.

Üçüncü bir məqam da aparıcıların öz üzərlərində işləməmələridir. İstənilən bir verilişə hazırlaşarkən aparıcılar o veriliverilişə hazırlaşarkən aparıcılar o verilişin məsuliyyətini hiss etməlidirlər, hazırladıqları mövzunun obyektini öyrənməlidirlər, o mövzunun mahiyyətinə varmağı bacarmalıdırlar. Bəzən mövzunun mahiyyətinə vara bilmirlər, mahiyyətin nədən ibarət olduğunu bilmədikləri üçün dinləyici auditoriyasını qazana bilməyən, peşəkarların zövqünə uyğun olmayan verilişlər aparırlar ki, nəticədə Azərbaycan dili qüsurlu bir dil kimi təqdim olunur. Və bunun fəsadı nəyə gətirib çıxarır?

Hər bir ailədə uşaqlar televiziyaya baxırlar, radionu dinləyirlər və bu zaman Azərbaycan dilini yaddaşlarına, qəlblərinə hopdururlar. Onu səhv hopdura bilirlər, dolaşıq hopdura bilirlər, qüsurlu hopdura bilirlər. Nəticədə qüsurlu aparıcıların danışdığı dil onlar üçün normaya çevrilir. Bir statistik hesablama aparsaq, son beş ilin, on ilin uşaqlarına fikir versək, onların nitqindəki qüsurların bir hissəsi radio və televiziyadan gələn qüsurlardır. Çünki uşağı da qınamaq olmaz. Radio və televiziya güzgüdür. Hər bir insan radio və televiziyanı etalon, meyar hesab edir. Elə hesab edir ki, orada deyilənlər, oradakı dilin normaları elə qanundur.

Radio və televiziya aparıcılarının dilindəki ən ciddi qüsurlardan biri orfoepiya qaydalarının pozulmasıdır. Mən sizə açıq deyim ki, ədəbi tələffüz qaydalarına riayət olunmur. Bu çox pis haldır. Ədəbi tələffüz qaydalarına riayət olunması üçün çox ciddi seçim aparmaq lazımdır. Radio və televiziyalarımızda çalışan əməkdaşlar senzuradan keçməlidirlər. Ola bilsin ki, diksiyaları yaxşıdır, peşəkarlığa can atırlar, amma orfoepiya qaydalarını bilmirlər, onları kursa göndərmək lazımdır. Yeri gəlmişkən, bir müqayisə etmək istəyirəm. Vaxtilə, keçmiş Sovetlər İttifaqının dövründə nitq mədəniyyəti fənnini öyrənmək üçün aparıcılar, diktorlar Moskvaya və digər yerlərə kurslara gedirdilər. Həm də Azərbaycanın özündə ən peşəkar diktorlar kurslar keçirdilər. Bax bu kurslar itib, ənənələr itib. Ona görə də ədəbi tələffüz qaydalarına riayət olunmur. Bu isə dilin estetikasına zərbə vurur, dilin rəvanlığına zərbə vurur. İstərdim ki, radio və televiziyalarda aparıcılar bu məsələlərə ciddi fikir versinlər.

Bir məsələni də qeyd etmək istəyirəm. Hər bir proqramın aparıcısı peşəkar olmalı və o sahəni dərindən bilməlidir. Bu da bizim radio və televiziyaların bir qismində çatmır. Bir müqayisə etmək istəyirəm. Məsələn, xarici ölkələrdə idman proqramı var, təhsil, hüquq və s. çoxlu proqram var. Hüquq proqramında aparıcılıq edən hər hansı bir jurnalist mütləq bütün hüquqi sənədləri, hüquqi normaları bilir, qayda-qanunları bilir. Hər bir sahədə belədir. Bizdə isə radio və televiziyalarda, mətbuatda da bu qüsurlar bəzən görünür. Görürsən ki, bir aparıcı təhsillə bağlı adi bir termini bilmir. Yeri gəlmişkən deyim, ölkədə əksər ali təhsil müəssisələri kredit sisteminə keçib. Görürsən kredit sisteminin mahiyyətini bilmir, kredit nədir, Boloniya nədir (bunlar əslində eyni bir sistemdir), bir-birinə qarışdırır. Əgər təhsildən bir jurnalist yazırsa və danışırsa, bir aparıcı danışırsa, o, təhsilin müasir səviyyələrini, müasir problemlərini və qayğılarını, hətta mən deyərdim, terminologiyasını bilməlidir. Bugün bizim kütləvi informasiya vasitələrində bu məsələləri bilməmək qeyri-peşəkarlığın doğurduğu bir nəticədir.

Biz müstəqillik əldə etdikdən sonra ən böyük uğurlarımızdan biri də ondan ibarət olur ki, artıq birbaşa xarici filmləri dublyaj edirik. Bunlar yaxşı hallardır, yəni müqayisə etsək, SSRİ vaxtı biz bir vasitəçi dilin - rus dilinin hesabına bu dublyajları aparırdıq. Müstəqilliyin verdiyi zəmanət, imkanlar ondan ibarətdir ki, biz artıq birbaşa orijinaldan - əcnəbi dillərdən filmləri dublyaj edirik. Eyni zamanda elmi, bədii, publisistik əsərləri tərcümə edirik. Əlbəttə, bunların hamısı həm də müsbətdir, çünki tərcümə prosesində Azərbaycan dilinin imkanları, potensialı, qarşı dilə qarşı rəqabətə davamlılığı üzə çıxır. Və çox sevindirici haldır ki, bu prosesdə Azərbaycan dili özünü təsdiq edir. Təsdiq etməsə, o filmlər necə Azərbaycan dilinə dublyaj oluna bilər, o elmi, bədii əsərlər necə çevrilə bilər?! Yeri gəlmişkən, bir müqayisə aparım ki, keçən əsrin, yəni XX əsrin 50-ci illərində Azərbaycan dilinə qarşı təqib, təzyiq mövqeyini tutanlar belə bir yanlış fikir irəli sürürdülər ki, guya Azərbaycan dili elm dili deyil, mədəniyyət dili deyil, amma bu yanlış idi. Sonra sübut elədilər ki, Azərbaycan dili ədəbiyyat dilidir, elm dilidir, mədəniyyət dilidir. İndi isə müstəqillik əldə etməyimiz bizə bir daha geniş imkanlar yaratdı ki, Azərbaycan dili incəsənət dilidir, film dilidir. Bu mənada dublyajların Azərbaycan dilində verilməsi vacibdir. Amma səsləndirmədə bizi qane etməyən cəhətlər var. Cümlə quruluşları bəzən çox dolaşıqdır, sözlər bəzən yerli-yerində deyil, yəni sıralanması düzgün deyil. Bu niyə baş verir və təklifimiz nədən ibarətdir? Bu ona görə baş verir ki, istənilən dublyaj olunmuş bir filmin peşəkar redaktoru olmur. Mən deyərdim ki, istənilən bir dublyaj olunmuş filmin həm korrektoru, həm redaktoru olmalıdır. Ümumiyyətlə, dublyaj olunmuş hər bir film peşəkar redaktorun əlindən keçməlidir. Çox təəssüflər olsun ki, redaktorluq ənənəsi artıq itib. Yeri gəlmişkən deyim ki, bizim televiziyamızda da, radiomuzda da, bir qrup qəzet və jurnallarımızda da peşəkar redaktorluq səlahiyyəti, statusu itib. Ona görə də dil qüsurlarına geniş yer verilir. Mən yeri gəlmişkən təklifimi demək istəyirəm ki, hər bir kütləvi informasiya vasitəsində peşəkar redaktorların səlahiyyəti artsın, onlara geniş yer verilsin. İstər elmi, istər bədii əsərlərdə (mən xüsusilə tərcümə olunan əsərləri nəzərdə tuturam) qüsurların çox olması, o əsərlərin redaktorların əlindən keçməməsi ilə bağlıdır. Peşəkar redaktorlar olmayanda dilin təmizliyi pozulur.

Tarix boyu peşəkar redaktorlara ehtiyac olub. Məsələn, keçən əsrin 40–50-ci illərində peşəkar redaktorların ədəbiyyatımız, mədəniyyətimiz, eləcə də kütləvi informasiya vasitələrimiz üçün böyük rol oynadıqlarını bizim yazıçı və şairlərimiz də deyiblər. Məsələn, Səməd Vurğun, Rəsul Rza müsahibələrində bu məsələni nə qədər aktuallaşdırıblar. Bütün zamanlarda redaktorlara ehtiyac vardır. Bu mənada o dublyaj filmlərində (hətta mən buraya cizgi filmlərini də əlavə edərdim) redaktorluq işləri çox bəsit aparılır. Amma mən o məsələni alqışlayıram ki, son dövrlərdə Azərbaycanda xeyli dublyaj olunmuş filmlər vardır. Bunlar bizim nailiyyətlərimizdir. Amma bu tərcümə olunmuş filmlərə biz təzədən qayıda, onları redaktə edə biləcəyikmi? Mənə elə gəlir bu müşkül məsələdir. Heç olmazsa, bundan sonrakı dublyaj olunmuş filmlərə redaktorlar ciddi nəzarət etməlidirlər. Və redaktorların işi stimullaşmalıdır. Mən belə başa düşürəm ki, hər hansı bir redaktor həvəskar səviyyəsində o işi görməyəcək. Bu işi operativləşdirmək üçün ölkədə tərcümə mərkəzləri yaradılmalıdır.

Düzdür, Bakı şəhərinin özündə müxtəlif yerlərdə tərcümə mərkəzləri var, onların uğurlu işləri də var, biz heç kəsin fəaliyyətinə kölgə salmaq istəmirik. Amma bunlar özfəaliyyət çərçivəsindədir. O tərcümə mərkəzləri koordinasiya olunmalıdır. Və yeri gəlmişkən, cənab Prezidentin 23 may 2012-ci il tarixli sərəncamında qeyd olunur ki, Nazirlər Kabinetinin yanında tərcümə mərkəzi yaradılmalıdır. Mənim dediyim odur ki, tərcümə mərkəzləri Nazirlər Kabinetinin yanında koordinasiya olunmalıdır və ölkədə dublyaj olunmuş filmlərə də, cizgi filmlərinə də, elmi, bədii, publisistik əsərlərə də dövlət səviyyəsində nəzarət olunmalıdır.

Bir də terminologiya məsələsinə ciddi fikir vermək lazımdır. Çünki dublyaj olunmuş hər hansı bir film hər hansı bir xalqın məişətindən, adət-ənənəsindən gəlir. Tərcümə prosesində o xalqın məişətində, adət-ənənəsində elə məsələlər ola bilər ki, bizim dilimizə o dilin öz termini ilə gələ bilər, onun qarşılığı bizdə olmaz. Tutaq ki, eskimoslar yaşadığı ərazidə qarın 200-dən çox növü var və hər növün öz adı var. Tutaq ki, qarla bağlı bir mövzu tərcümə olunursa, bizdə o qarşılıq olmayacaq. Bax terminologiya komissiyası buna görə lazımdır. Yaxud, dəvənin müxtəlif növləri var. Dəvə ilə bağlı hər hansı bir əsər tərcümə olunursa, o dəvənin növləri hamısı bizdə ola bilməyəcək.

Prezidentin sərəncamında bu terminologiya komissiyası da mühüm yer tutur.

Ümumiyyətlə, bizim telekanallarımızda orijinal verilişlər azdır. Bir qrup verilişlər isə başqa kanallara —Rusiyanın, Türkiyənin, Avropanın kanallarına baxılaraq təqlid etmək yolu ilə qurulur. Bu təqlid də effekt vermir. Təqlidin özü insanları yorur. Bu gərək içdən gəlsin. Orijinallıqdan gəlsin, bir ideya kimi, düşüncə tərzi kimi gəlsin. Ona görə mən istəyərdim ki, bizim telekanallarımızda mövzu dairələrinə görə çox verilişlər olsun: vətənpərvərlik, mədəniyyət, idman, elm, təhsil və s. sahələrdə. Yeri gəlmişkən, Azərbaycan televiziyasının "İdman" və "Mədəniyyət" kanallarının açılması sevindirici haldır.

Maarifləndirici verilişlərə ehtiyac var. Ona görə ki, hər bir veriliş gənc nəsli tərbiyələndirir.

Televiziya kanallarında şouların sayı getdikcə çoxalır. Çox yorucu haldır və artıq maqazin verilişləri cəmiyyəti bezdirib. Ayrı-ayrı artistlərin, müğənnilərin həyatından, tərcümeyi-halından, bir-birləri ilə umu-küsülərindən danışmaq, hətta evlərindəki paltar şkaflarını göstərmək, sürdükləri maşınları, bağ evlərini, yedikləri xörəyi nümayiş etdirmək cəmiyyətdə ikrah hissi yaradır. Axı bizim dəyərlərimizdən biri ondan ibarətdir ki, məişətimizi açıb televiziyada göstərməməliyik. Təəssüflər olsun ki, o umu-küsülər, atmacalar, dedi-qodular insanların əhval-ruhiyyəsini, gənc nəslin tərbiyəsini pozur. Və insanlar həyatını elə onlar kimi qurmaq istəyirlər: xarici maşınlar sürmək, yaxşı villalarda, evlərdə yaşamaq, ucuz yolla şöhrət qazanmaq, zəhmətsiz həyat tərzi keçirmək, insanlar haqqında ədalətsiz fikir yürütmək, haqsız danışmaq. Bu cür verilişlər estetik tələblərə cavab vermir, dünyəvi insan hazırlamır, milli insan hazırlamır, Azərbaycançılıq ideologiyasına xələl gətirir. O verilişlərin əleyhinəyəm. Mən istərdim ki, bunların əvəzində ölkəmizdə tanınmış ziyalılardan verilişlər versinlər. Rubrikalar yaradılsın, ayrı-ayrı elm sahələrində tanınmış ziyalılardan verilişlər hazırlansın, onların tərcümeyi-halı danışılsın, özlərindən müsahibə götürülsün, onların yaradıcılığı kütləvi bir dilə salınsın və ictimaiyyətə çatdırılsın ki, hansı yenilikləri görüblər. Təəssüflər olsun ki, bu istiqamətdə işlər arzu olunan səviyyədə deyil.

Təbii ki, biz müharibə şəraitindəyik, ölkəmizin 20 faiz torpağı işğal altındadır və vətənpərvərlik mövzusu həmişə ana mövzulardan biri olmalıdır. Və ümumiyyətlə, mən deyim ki, belə bir misal var, əgər sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Yəni bütün tarix boyu belədir ki, qüvvətli dövlət olmaq üçün, qüvvətli vətəndaş olmaq üçün, qüvvətli məmləkət olmaq üçün güclü ordun olmalıdır. Güclü ordu da təkcə sözlə, sərəncamlarla, fərmanlarla yaranmır. Bu istiqamətdə ideoloji işlər görmək lazımdır. Bizim kütləvi informasiya vasitələri bu istiqamətdə işlər görməlidir. Biz ayrı-ayrı televiziya, radio kanallarının işinə kölgə salmaq istəmirik. İşlər var, amma bunların sayı çoxalmalıdır. İstəyərdim ki, televiziya kanalları, qəzetlər, jurnallar bizim milli qəhrəmanlardan rubrikalarda bədii portretlər yaratsınlar, oçerklər yazsınlar, onların qəhrəmanlıqlarını təsvir etsinlər, yəni onlara çox geniş yer vermək lazımdır. Ümumi verilişlər var, amma onları daha dərindən aparmaq lazımdır. Qədim dövrdən indiyə qədərki xalq qəhrəmanlarından üzü bəri milli qəhrəmanlara qədər bütün qəhrəmanlara televiziyalarımız geniş meydan verməlidirlər. Şoulardan, maqazin verilişlərindənsə, bu verilişlər bizim dövlətimizə, dövlətçiliyimizə, azərbaycançılıq ideologiyasına yüksək səviyyədə xidmət edə bilər.

Tövsiyə edərdim ki, hər halda peşəkar jurnalistlər radio və televiziyalara meydan alsınlar. Köhnə ənənələr bərpa olunsun, yəni bir zamanlar xüsusi kurslarda təcrübəli diktorlar, jurnalistlər gəncləri öyrədirdilər. Xüsusi kurslarda jurnalistlərə nitq mədəniyyəti öyrədilsin. Ali məktəblərin müvafiq fakültələri ilə televiziyaların sıx əlaqəsi qurulsun. Jurnalistikanın problemləri öyrənilsin. Dili hər bir vətəndaş qorumalıdır. Peşəkarlara daha geniş meydan verilməlidir. Belə olarsa, radio və televiziyaların nüfuzu əvvəlki səviyyəsinə qalxacaq.

Azərbaycan radiosu və televiziyasında köhnə ənənə qalıb. Çox səmimi deyirəm, Azərbaycan radiosunu dinləyəndə dilimizin şirinliyini, lətifliyini, gözəlliyini, məlahətini hiss edirik.

Süni şəkildə auditoriya yığmağa ehtiyac yoxdur. Dilin imkanlarından, qoyulan mövzunun aktuallığından istifadə edərək, milli maraqlara xidmət edən mövzuları gündəmə gətirməklə peşəkarcasına radio və televiziyaya xidmət etmək lazımdır.

Rafiq YUSİFOĞLU,
filologiya elmləri doktoru, professor

—Dilimizi sevməli, qorumalı, onu eybəcər şəklə düşməyə qoymamalıyıq. Şeirin-sənətin dili, üslubu ilə mətbuatın dili, üslubu arasında əhəmiyyətli dərəcədə fərq var. Bu, xüsusi bir tədqiqatın mövzusu olduğu üçün bir-iki cümlə ilə fikri tam anlatmaq mümkün deyil. Ancaq tam səmimi şəkildə deyirəm ki, kütləvi informasiya vasitələrinin dili dilimizin ifadə imkanları ilə müqayisədə qənaətbəxş deyil. Profesionallıqdan çox-çox uzaq kütləvi çayxana, meyxana, məişət danışığı adamı bezdirir, əsəbiləşdirir. Təəssüf ki, istər mətbuatda, istərsə də radio və televiziyada boş-boş danışıqlarla səhifəni, verilişi doldurmaq meyli o saat nəzərə çarpır. Bu uzun danışmağın səbəbi isə Paskala məxsus, lakin L.Tolstoyun daha çox işlətdiyi bir kəlamda öz əksini tapıb: "Uzun yazdığım üçün məni bağışlayın, qısa yazmağa vaxtım olmadı". Əsas fikri nəzərə çatdırarkən dilin qayda-qanunları ilə bahəm hər bir janrın tələblərinə də riayət etmək olduqca zəruridir.

Ümumiyyətlə, tərcümə çətin məsələdir. Burada məqsəd fikri daha dəqiq ifadə etməkdən ibarətdir. İnsana qan köçürərkən qan qrupu nəzərə alındığı kimi, tərcümə edərkən də gərək öz zövqünə, üslubuna uyğun əsərlərin tərcüməsinə girişəsən. Dublyaj isə bir az başqa məsələdi. Başqa dillərdə səsləndirilən filmləri dilimizə çevirmək, onun Azərbaycan versiyasını yaratmaq sahəsində xeyli uğurlu işlər var, bunları danmaq olmaz. Ancaq nöqsanlar da az deyil. Məsələn, bəzi filmlərə rus dilində baxanda adam onu daha yaxşı başa düşür, nəinki Azərbaycan dilində. Bəzi ifadələr düzgün işlədilmir. Məsələn, dilimizdə "acmaq" sözü var. Təəssüf ki, həm filmlərdə, həm də verilişlərdə "acmaq" sözünü "acımaq" kimi işlətmək dəbə düşüb: "Yaman acımışam"... Acımışam yox, acmışam. Acımışam sözünün məna çalarları isə çoxdur. Bir var halına acımaq, yanmaq, bir də var xəmirin acıması... Təəssüf ki, uğurlarla bərabər nöqsanlar da az deyil...

Televiziya çox böyük tribunadır. Təəssüf ki, bu müqəddəs kürsüdən lazımi səviyyədə istifadə edə bilmirik. Ancaq vaxtilə televiziyada işləyən bir adam kimi bu məsələni xüsusi diqqətə çatdırmaq istəyirəm ki, yaxşı veriliş hazırlamaq çox çətin, çox vaxt aparan bir işdi. Yaxşı veriliş üçün yaxşı pul lazımdı. Yaradıcı kollektiv "haradan pul qoparmaq" haqqında yox, yaxşı veriliş hazırlamaq haqqında düşünməlidir. İkinci, televiziya mətbuatdan xeyli dərəcədə fərqlənir. Yaxşı veriliş yaxşı ideyadan, onu reallaşdırmaq ustalığından doğulur. Bunun üçün isə yaxşı mütəxəssislərə böyük ehtiyac var. Xarici verilişlərdən də bəhrələnmək olar, ancaq hər şeyin bir əndazəsi olmalıdı. O yerdə ki, fərdi düşüncə yoxdu, orijinal verilişin araya-ərsəyə gəlməsindən söhbət belə gedə bilməz. Təəssüf ki, televiziya kanalları efiri doldurmaq xətrinə zəif verilişlərə göz yummaq məcburiyyətində qalırlar...

Sovet dönəmində belə bir şüar mövcud olub: "Hər şey müharibə üçün, hər şey qələbə üçün!" Bizdə isə nəinki bu məsələ, eləcə də ədəbiyyatımızın, mənəviyyatımızın, elmimizin, incəsənətimizin təbliği arxa plandadı. Adamda elə təəssürat yaranır ki, bu millətə, bu xalqa müğənnidən başqa mütəxəssis lazım deyil. Boş-boş çal-çağırlar, şoular o boyda Qarabağ problemini millətə əməlli-başlı unutdurub... Ən pis cəhətlərdən biri də budur ki, elə bil xalqın ədəbi zövqü hərraca qoyulub... Təəssüf ki, Azərbaycan teleməkanında uşaqlar üçün verilişlər də yox dərəcəsindədir. Uşaqlar, gənclər müğənnilərin neçə dəfə evlənib-boşandıqlarını, hansı evdə yaşadıqlarını, ayaqqabılarının ölçüsünü, maşınlarının markasını, qiymətini, nömrəsini də bilirlər, görkəmli şairləri, yazıçıları, alimləri isə tanımırlar. Bir neçə il bundan əvvəl Zərdabi haqqında bir məqaləmdə ürək ağrısı ilə yazmışdım ki, Azərbaycan televiziyalarının "hünər və qeyrəti" sayəsində bu gün Şirin Zərdablı Həsən bəy Zərdabidən qat-qat məşhur və tanınmış bir insandır. Bu çox acı, düşündürücü bir həqiqətdir... Müğənninin işi mahnı oxumaqdı, bizdə isə müğənnilər veriliş aparır, siyasi məsələlərdən, əxlaqi problemlərdən söhbət açır, millətə "əxlaq dərsi" verməkdən belə çəkinmir... Bu, çox acınacaqlı bir haldır...

Problemlər çoxdur. Verilişi hazırlayanın həm istedadının olması, həm də onun maddi marağının ödənilməsi vacib şərtdir. Problemi aradan qaldırmaq o sahədə çalışan, saç-saqqal ağardan mütəxəssislərin boynuna düşür. Məsələni radionu və efiri lağ lağıya döndərən, dilin qrammatik qaydalarını bilməyən özündənrazı cavanların çevikliyi ilə həll etmək mümkün deyil. İstedadlı cavanlarımız xüsusi məktəb keçdikdən sonra tamaşaçıya nəyi isə təlqin eləyə bilərlər.

Arzum budur ki, kütləvi informasiya vasitələri problematik mövzuları ilə oxucu və tamaşaçıları özünə cəlb edə, dilin incəliklərini cavanlara öyrədə bilsin. Hər şey mütəxəssisin səviyyəsindən asılı olduğu üçün bu sahədə kadr hazırlığına xüsusi diqqət yetirilməsini vacib sayıram. Qoy dilimiz mənəviyyatımızın aynasına çevrilsin.

Rafiq SƏMƏNDƏR,
("İctimai Televiziya"da Yaradıcılıq Birliyinin baş redaktoru):

—Bir şeyi bilmək lazımdır, Radio və Televiziyanın özdili var. Bu dil başqa bir qondarma dil deyil. Bu dil təmiz olmalıdır. Dil başqa heç bir yad ünsürü, qatqını qəbul etmir. Gec-tez dəniz kimi onu sahilə çırpır. Bax belə bir dillə efirdən, ekrandan danışanda səni dinləyirlər. Sənə qulaq asırlar. Son illər bu problem daha çox üzə çıxıb. Çünki, tele-radiolar çoxalıb, aparıcı və çıxışçılar isə həddindən artıq bollaşıb. Bu gün az qala hər ailədə bir tele-radio aparıcısı var. Və onlar evlərində necə danışırlarsa, gəlib efirə də elə çıxırlar.

Ötənlərdə bizə deyirdilər ki, ekran-efirdə -mış,-miş,-muş, -müş şəkilçilərindən istifadə etmək olmaz: əvəzində -ıb, -ib, -ub, -üb. Yəni almamışdır sözün yerinə almayıb işlətmək lazımdır. Bu misal yüzdən biridir.

Tez-tez ekrandan- efirdən çıxış edən deyir filan-filan şeylər aşağıdakılardır. Efirin-ekranın aşağısı, yuxarısı olmur. Bu qəzet sözüdür, efirlik deyil. Bax Radio-Televiziya dili deyəndə bunları nəzərə almaq lazımdır... Bütün bu amillər də tamaşaçı, dinləyici gözündə səviyyəni, mədəniyyəti formalaşdırır.

Tərcümə və dublyaj professionalın əlində olmalıdır. Hər dili bilən hələ yaxşı tərcüməçi demək deyil. Tərcüməçi həm də yaxşı yazıçı, yaxşı jurnalist və dili bilən yaxşı qələm sahibi olmalıdır.

Təəssüf ki, filmlər çoxalıb, tərcüməçilər isə ondan da çoxdur. Çox vaxt dostluğa, tanışlığa, qohumluğa, bir parça çörək pulu qazanmağa qurban gedir filmlərin tərcüməsi.

Hər bir telekanalın ilk növbədə uğuru onun orijinal verilişlərində olur. Bu hər bir sahədə elədir... Öz istehsalın olmalıdır. İmkanı və gücü çatmayanda məcburdur veriliş transfer etməyə. Orijinal veriliş azdır, ona görə ki, çətindir. Ancaq mən deməzdim ki, bizim teleməkanda orijinal veriliş azdır. Kifayət qədər var, ancaq dinləyici marağına səbəb olubmu? Bu günlərin diliylə desək, reytinq qazanırmı? Bu ayrı söhbətin mövzusudu.

Belə zəif verilişlərdən qurtulmağın isə bir yolu var, onu efirə verən zəif müəllifdən uzaqlaşmaq. Vəssalam.

O ki, qaldı aktyorların ekranda-efirdə didişmələrinə, harda belə didişmə gördünüz, demək o aktyor deyil. O, səhnədə oynayandır. Əsl aktyor səhnə istedadı ilə bütün məsələləri yerinə qoyar.

Müharibə vəziyyətində olan ölkəmizin efirində vətənpərvərlik mövzusu kifayət qədərdir. Amma bu mövzunun qoyuluşu, verilişin səviyyəsi, dərinliyi mövzunu elə cılızlaşdırır ki, heç gözə dəymir. Heç kəsin bir tükünü belə tərpətmir. Sonra sizə də elə gəlir ki, vətənpərvərlik mövzusu yoxdur. Var, amma o var deyil.

Radio və televiziyanın bu dəqiqə bir problemi var: tamaşaçı, dinləyici auditoriyası. Onları da əldə etmək üçün güclü olmaq lazımdır. Güclü olmaq üçün də ən azı bu sadaladıqlarımız problemlərin həllindən başlamaq lazımdır.

Bir arzum var. Səhər-axşam, gecəgündüz evlərimizə qəfil qonaq gələn ekran-efirimizdən doğma dilimiz təmiz, şəffaf, bulaq suyu kimi axıb ruhumuzu oxşasın.

Analarımız desin ki, bax, bu mənim dilimdir. Uşaqlarımız dili ordan öyrənsin. Və hamımız bu dili dinləyib, qulaq asandan sonra deyək ki, "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!"

Təranə İBRAHİMOVA,
Laçın rayonunun 40 saylı tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi

—Mən yazılı mətbuatdan o qədər də narazı deyiləm. Amma söhbət geniş auditoriyası olan radio və televiziyalardan gedirsə, burada fikirlərim haçalanır. Dövlət nəzarətində olan AZTV və dövlət radiolarına bir iradım yoxdur. Bir-birindən maraqlı və rəngarəng proqramlar mənim bir tamaşaçı kimi ürəyimdəndir. Ancaq bəzi telekanallarda bəzi aparıcıların dili, nitq tezliyi, hətta adi nəzakət qaydalarını gözləməməsi, yersiz zarafat və gülüşləri, hətta geyimləri belə tamaşaçını əsəbiləşdirir. Əgər aparıcı "nəyə görə" əvəzinə, "niyə görə" deyirsə, reklam keçidini "getdik" sözü ilə elan edirsə, ondan nə nümunə göstərmək olar?! Nitqlərini yersiz rus və osmanlı türkcələri ilə doldurmuş qüsurlu nitqlərlə insanlara "başağrısı" verən jurnalistlər kimə gərəkdir?! Əlbəttə, bu cür "yonulmamış", hətta jurnalistlikdən xəbəri olmayan müxtəlif peşə sahibləri belə "jurnalistlik" edəcəksə, bu bağışlanılmazdır.

Bəzi xarici filmlərə həm Türkiyə telekanallarından, həm də özümüzünkülərdən baxmışam. Nə qədər kəskin fərqə malik olduqlarını da görmüşəm. Həm səsləndirmədə, həm də aktyor oyununun gözlənilməsində nə qədər qüsurlar var. Məsələn, uşaq və yaxud cavan birisinin səsini yaşlı bir dublyor əvəz edir. Mən hələ Türkiyə türklərinin çəkdiyi filmləri demirəm. Ulu öndər H.Əliyevin vurğuladığı kimi axı biz "İki dövlət, bir millətik". Yöndəmsiz söz və ifadələrlə belə "türk dilindən türk dilinə tərcüməni" lap zay günə qoyublar.

Demək olar ki, orijinal verilişlər yox dərəcəsindədir. Mən intellektual verilişləri və tele-debatları izləyir, sevə-sevə baxıram. Əksər telekanallar "maqazin" verilişləri, müğənnilərin evindən cürbəcür formalı verilişləri göstərməklə proqramlarını "zənginləşdirirlər". Hələ iş o yerə çatıb ki, insanın həyatında əsas amillərdən biri olan evlilik haqqında da veriliş açıblar. Hansısa xarici telekanallardan "ksekopiya" edilmiş "Toy olsun" və "Onun yarısı" eyni vaxtda başlayıb eyni vaxtda bitir. 20 yaşından, 80-90 yaşa qədər insanlar utanmadan millətin gözü qabağında "boyun nə qədərdir, çəkin nə qədərdir" suallarını verməklə özünə həyat yoldaşı seçirlər. Onsuz da millilikdən uzaq məişətimizi bu cür verilişlərlə daha da bərbad günə qoyurlar.

Bu sualınız müharibənin acı nəticəsini hiss edən bir insan kimi lap ürəyimdən xəbər verdi. Təəssüf ki, bu verilişlərin sayı da, tamaşaçısı da azdır. İnsanlara güclə vətənpərvər ol demək olmaz, gərək insanın içində olsun. Amma burda mətbuatın da böyük köməyi var. Nədənsə bu sualı verdiyinizdə Dağıstan xalqlarının qəhrəmanı Şeyx Şamil yadıma düşdü. O, çar Rusiyasına qarşı 20 ildən artıq mübarizə aparmışdır. Şamil müharibə gedən bir ölkədə oxumağı, oynamağı yasaq etmişdi. Amma, bizim telekanallar yüngül, bayağı proqramlarla doludur. Əgər küçədə, yaxud istənilən bir yerdə torpaqlarımız uğrunda şəhid olmuş şəxslərin adlarını soruşsanız, 7-8 nəfərin adını çəkərlər. Ancaq, müğənniləri soruşsanız, nəinki özlərini, hətta nəsil-nəcabətlərini də söyləyərlər.

Biz azad, müstəqil ölkənin vətəndaşlarıyıq. Amma mən azadlığa "özbaşınalıq" kimi baxmıram. Hər şey qədərində və yerində olsa yaxşıdır. Söhbətimiz doğma dilə münasibətdən getdiyi üçün mən də mətbuata bu yöndən yanaşdım. Amma, əslində radio və telekanalların çox problemləri və onları aradan qaldırmağa qadir olan qurumlar var.

Dövlət ana dilində və milli yönümdə verilişlər və filmlər çəkilməsinə maddi və mənəvi kömək edir. Hətta bu yaxınlarda yerli seriallar çəkmək üçün dövlət xüsusi vəsait də ayırdı. Bunlardan səmərəli istifadə etmək yalnız mətbuatdan, radio və televiziya qurumlarından asılıdır.

Arzum budur ki, bütün telekanallardakı aparıcılar, qəzet və jurnallarda imzası gedənlər peşəkar jurnalistlər olsun. Heç olmazsa orta məktəblərdə öyrəndikləri orfoqrafiya və orfoepiya qaydalarını gözləsinlər. Etik normaları belə gözləməyən, qarşısındakı müsahibinin tez-tez sözünü kəsib fikrini yayındıran aparıcılardan telekanalların təmizlənməsi vaxtıdır.

Söhbəti hazırladı:
Şöhlət ABBAS,
"Respublika".